No: 04 2025
https://doi.org/10.64400/ea25-4-08
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# "DA VİNÇİ ŞİFRƏSİ" ROMANINDA ALTERNATİV GERÇƏKLİK VƏ DİNİ MİFİN BƏDİİ REKONSTRUKSİYASI

**Yeqzar CƏFƏRLİ**
Xəzər Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif: yeqzar@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
Den Braun, İsa Məsih, alternativ reallıq, dini mif.

**XÜLASƏ**
Məqalənin yazılmasında məqsəd Den Braunun "Da Vinçi şifrəsi" romanını alternativ tarix və dini mifin yenidən qurulması baxımından incələməkdir. Bu məqsədə çatmaq niyyət ilə bədii mətnin simvolik, eləcə də dini və tarixi yönləri aydınlaşdırılmış, gerçəklik və illüziya arasındakı sərhədlər üzərində bədii müşahidələr aparılmışdır. Belə ki, ilkin olaraq romanın fakt və fərziyyə yönləri müəyyən olunmuş, sonra əldə olunan yanaşmalar analitik şərhə cəlb edilmişdir. Yazarın bədii mətndə istifadə etdiyi simvollar, həmçinin dini və tarixi məqamlar postmodern estetika daxilində izah edilmişdir. Müəllif romanda fakt və absurdun sərhədlərinin pozulmasını postmodern yöndə oxucuya çatdırmışdır. Romandakı dini simvollar, eləcə də tarixi və alternativ təkliflər oxucuda empirik qeyri-müəyyənlik yaradır. Bundan əlavə, məqalədə postmodern nəzəriyyənin mətnlərarası əlaqə, simulyasiya, dekonstruksiya kimi bədii oyun texnologiyalarından istifadə edilmiş, məqalənin elmi-nəzəri quruluşu gücləndirilmişdir. Yazıçının alternativ gerçəklikdən məqsəd yox, vasitə kimi istifadə etməsi romanın bədii şərhinə töhfə vermişdir. Alternativ gerçəkliyin dini miflə paralel təqdimatı romanın fakt-fərziyyə keçidinin üzərində bir məna, estetik görüntü yaratmışdır.

## GİRİŞ

Ədəbiyyatşünaslığın bir elm sahəsi kimi gerçəkliyin konseptual statusunun müəyyən edilməsində böyük önəmi var. Hazırkı dövrdə gerçəklik anlayışı mahiyyətcə dəyişsə də formaca öz sabitliyinə sadiqdir. XX əsrin II yarısından etibarən postmodernizmin yaranması gerçəkliyinin təqdimatında fərqliliklər yaratmışdır. Çağdaş dövrdə isə ədəbiyyat təkcə müxtəlif cərəyanların baxışları ilə deyil, həmçinin birbaşa həyatın dərki ilə də məşğuldur. Buna görə də tarixə qarşı alternativ tarix formalaşdı ki, o da özlüyündə həqiqətin nisbiləşməsinə xidmət edir. Bu məqalədə çağdaş dövr amerikan ədəbiyyatının nümayəndəsi Den Braunun timsalında alternativ gerçəklik konsepti dini miflə paralel şəkildə araşdırılır. Romana rekonstuktiv baxış əsl gerçəkliklə qondarma gerçəkliyin sərhədlərinin itməsi baxımından maraqlıdır. Romanın əsas ideyası xaricində belə dəyər qazanan quruluş komponentləri alternativ gerçəklik və dini mif baxımından önəmlidir. "XX əsrin əvvəllərindən Qərbdə getdikcə daha geniş yayılan mətn təhlilinin ən əsas məqsədi ədəbi əsəri bütövlükdə təhlil etməkdir" [5, s. 145].

## MATERİAL VƏ METODLAR

Tədqiqat Den Braunun "Da Vinçi şifrəsi" əsasında alternativ gerçəklik və dini mif kontekstində araşdırılmış, tarixi-müayisəli və analitik meodlar vasitəsilə aydınlaşdırılmışdır. Sistemli təhlil metodu çağdaş amerikan romanı nümunəsi kimi "Da Vinçi şifrəsi" romanında alternativ gerçəkliyə və dini mifə postmodern estetika daxilində nəzər salınmasına imkan vermişdir.

## ƏLDƏ OLUNAN ƏSAS NƏTİCƏLƏR

"Da Vinçi şifrəsi" romanı çağdaş amerikan romanında alternativ tarixin və dini mifin maraqlı bir nümunəsidir. Maraqlı adlanan məqam əsərin detektiv komponentlərindən daha çox sözügedən problemlərin əyləncə kontekstində təqdimatı ilə bağlıdır. Hadisələrin dinamikası romanda sabit absurdla dəyişkən həqiqətin qarşıdurması kimi diqqət çəkir. Başqa deyimlə, müəllifin ana məqsədi fakt və uydurma arasındakı sərhədi silməkdir. Mahiyyət etibarilə belə bir sərhəd ədəbiyyat yox, tarix tərəfdən qoyulmuşdur. Bu anlamda demək olar ki, müəllif ədəbiyyatı tarixdən ayırmağa çalışır.

Oxucu müəllifin İsa Məsih, Mariya Maqdalena, Leonardo da Vinçi və digər insanların həyatına yeni işıq saldığını düşünür. Digər tərəfdən, Den Braun postmodern estetika tələbləri daxilində simulyasiya və qeyri-müəyyənlikdən istifadə edərək, adı çəkilən personajları alternativ reallıq kimi təqdim edir və bu baxımdan onlardan istifadə edir. Oxucu aldanmamaq üçün aktiv olmalıdır.

Nəticə etibarilə, "Da Vinçi şifrəsi" romanı bütövlükdə müasir ədəbiyyatda reallıq və mif anlayışlarının qarşılıqlı əlaqəsini təklif edir və onların postmodern təzahürlərini təsirli və konstruktiv şəkildə təqdim edir.

## MÜZAKİRƏ

"Da Vinçi şifrəsi" romanı alternativ gerçəkliyin özünəməxsus yönlərini müəyyən edən bir bədii mətndir. Bədii mətn olmasına rəğmən din, tarix, sosiologiya kimi sahələri də bədii gerçəkliyin içində əritməyi bacarır. Bu yanaşma özlüyündə postmodernizmin "Dünya mətndir" tezisini müdafiə edir. Beləcə, postmodernizmin ədəbiyyata geniş meydan verməsini onu gerçək sənət anlayışından uzaqlaşdırma istəyi kimi yox, əksinə sənətin əhatə dairəsini böyütmək istəyi kimi yozmaq olar.

Bədii mətnin simvolik, semiotik, tarixi, dini, sosial və başqa elmi-nəzəri kimlikləri ehtiva etməsi onun metodoloji bazasının əsas nöqtələrini təşkil edir. Bu çoxtərəfli yanaşmanın təhlili ilə romanın verdiyi mesaj daha da sadələşdirilir, beləcə, daha dəqiq və anlaşıqlı elmi qənaətlər əldə olunur.

### Gerçəklikdən alternativ gerçəklik modelinə doğru

Alternativ gerçəklik gerçəkliklə müqayisədə dini mifə və absurda daha yaxındır. Ona görə ki, alternativ gerçəklik bilinən reallığın arxasındakı mənzərəni araşdırır. Bu mənzərə hər zaman gerçəkliyin kölgəsində qaldığından ona münasibət də ikinci dərəcəlidir. Son onilliklərdə alternativ gerçəkliyə marağın çoxalmasının əsas səbəbi postmodernizm və xaosdursa, texnoloji yeniliklərin də artışını gözardı etmək yanlış olar. Bu mənada Den Braunun alternativ tarixi ikinci plandan çıxartmaq cəhdləri onun yeni bir gerçəklik yaratmaq istəyi kimi də mənalandırıla bilər. Belə olduqda, romanın ifrat təndiqlərə məruz qalması başa düşüləndir. Ona görə ki alternativ gerçəklik nə qədər güclənirsə güclənsin, hələ də bir maraq səviyyəsində qalır, konseptual məna ifadə etməkdə zorluq çəkir. "Bəzi maraq artırıcı kitablar siyasi kontekst, cinsəllik və dinə üsyan bəhanəsi ilə xüsusi rejim yasaqlanmışdır" [6, s. 261]. 2005-ci ildə Den Braunun sözügedən mətni yayımlananda da dünya boyu olumsuz dəyərləndirmələrə [4] səbəb olmuşdu.

"Mələklər və iblislər" romanında olduğu kimi burada da postmodernizm mövzu və hadisə əsaslıdır. Roman bilinən bir mətn əsasında yazılmadığından onu postmodern nəzəriyyə baxımından təhlil etmək çətindir. Lakin bədii mətnin mövzu və ideyası postmodern dövrün reallıqları ilə müqayisədə daha çox oxşarlıqlara malikdir. Romanda müəllif hadisələri kənardan izləyir, aradabir qiymətini verir, daha sonra isə yenə geri çəkilir. Romanın detektiv mənsubiyyətinə baxmayaraq müəllifin hadisələrə loyal və individual yanaşması kölgə effekti yaradır; kölgədə qalan alternativ gerçəklik öz yerini həqiqi gerçəkliyə verir. Ədəbi müzakirələrdə tez-tez detektiv romanın ciddi ədəbiyyat nümunəsi olmadığı səslənsə də, bu növ romanların bəşəriyyətin güzgüdən əks olunan canavarlaşmış halı olması [7] danılmaz bir həqiqətdir.

Bilindiyi üzrə, romanın əsas mövzusu İsa Məsihin həyat və fəaliyyəti üzərində qurulub. Müəllif Leonardo da Vinçini də romana qaynaq etməklə alternativ bir İsa kimliyi yaratmağa cəhd edir. Burada da bəlli olduğu kimi əsas məqsəd alternativ gerçəkliyin meydanını genişləndirməkdir. Romanın detektiv qəhrəmanları Robert Lənqdon və Sofi Neve yalnızca macəra arxasınca qaçırlar. Lakin bu qaçış əylənmək niyyəti ilə deyil, düşündürmək niyyəti ilədir. Müəllif hər iki obrazı həqiqət arxasınca ona görə göndərir ki, insanların şüurundakı gerçəkliyi büt olmaqdan xilas eləsin. Buna gör də, fransız filosofu Jan Bodriyarın söz açdığı "hiperreallıq" yanaşması romanda [1] alternativ gerçəkliyin timsalında boy atır, şaxələnir. Mövcud gerçəkliyin sabitlik xüsusiyyəti qazanmasında önəmli pay sahiblərindən biri də modernizm idi. Beləcə, postmodernizm modernizmin fərdiliyini ümumiləşdirərək gerçəkliyi şaxələndirir, gerçəkliyə alternativ bir gerçəklik yaradır. "Postmodern roman işinə modern romanın xarici aləmi, cəmiyyəti və fərdi rasionalist və obyektivist bir biçimdə yansıtma anlayışı və ya iddiasını yıxmaqla başlamağa başlayır" [5, s. 55].

“Da Vinçi şifrəsi” romanında alternativ tarixin və dini mifin yenidən qurulması, postmodern deyimlə rekonstruksiyası fonunda müəllif yeni reallıq çalarları təklif edir. “Sonuncu axşam yeməyi” adlı rəsm əsəri, həmçinin Müqəddəs Kasa ilə bağlı dolaşan əfsanələr müəllif tərəfindən yenidən qurularaq gerçəkliyə montaj edilir. Absurd, uydurma kimi tanınan bir çox məlumatlar gerçəkliklə ayrı tutulsa da, müəllif əksinə onları gerçəkliyə aid edərək oxucunu yaxşı mənada çaşdırır. Məsələn, “Mona Liza”nın dünyaca ünlü olmasının səbəbini simvolik olaraq yozan müəllif gerçəkliyi təhrif etmir, onu bərpa etməyə çalışır. Təkcə “Mona Liza” ilə bağlı müddəalar “Yaxşı detektiv yaxşı ədəbiyyatdır” tezisini “Da Vinçi şifrəsi” romanına da aid etmək üçün yetərlidir. “İncəsənətşünasların əksəriyyəti bu fikirdə idilər ki, Leonardo da Vinçinin “Mona Liza”ya bağlılığı ilə əsərin bədii kamilliyi ilə yox, başqa səbəblə izah edilir” [2, s. 162].

Bütün bunlara baxmayaraq romanın bir çox yerində simulyativ baxış tez-tez qırılır. Bəzi məqamlarda müəllif özü də bilmədən Lənqdon və Neveyə kömək edir, yol göstərir. Postmodernizmin təklif etdiyi tezislərdən biri də bu idi ki, müasir dövrün insanı axtarış meyilli olmalıdır. Əvvəlki dövrün insanından fərqli olaraq o daha çox görəvə malikdir. Bu yanaşma əsrin əvvəllərindən boy atmasına baxmayaraq ancaq əsrin II yarısından sonra şəkilləndi, bugünkü kimliyini formalaşdırdı. “Bir yandan kapitalizmin təkrar hərəkətə başlaması və yaratdığı rifahın, digər yandan texnologiyanın yüksək gəlişməsinin bilginin üzərində yarada biləcəyi təsir, əlbəttə, başa düşüləndir” [3, s. 74].

“Da Vinçi şifrəsi” romanında alternativ tarix və dini mif paralel nöqtələr kimi dəyər qazanır. Yazıçı dini mifi fanatizmdən arındırmaqla alternativ gerçəkliyin bazasını gücləndirir. Beləcə gerçəklik bir büt qavram olaraq zədələnir, zədələnmiş hissələri isə alternativ tarix hesabına bərpa edilir.

**Rekonstuksiya və postmodern estetika**

Yazıçı yaratdığı alternativ gerçəklik modelini zərgər dəqiqliyi ilə işləməyə cəhd edir. Ona görə ki, səbəb olaraq qurulan model nəticə olaraq estetikaya xidmət etməlidir. Belə olduqda roman həm də bir intellektual oyunu xatırladır. Den Braun İsa ilə Mariya Maqdalena arasındakı münasibətləri din və tarixdən ayırıb ədəbiyyata gətirməklə bədii gerçəkliyi gerçəklik və alternativ gerçəklik arasında körpüyə çevirir. İsa Məsihin “Sonuncu axşam yeməyi”ndə istifadə edilən Müqəddəs Kasanı müəllif dini və sosial sirlərə qaynaq edərək yeni simulyativ məna çaları yaradır. Belə ki, Den Braun Müqəddəs Kasanı İsanın qanı olan kasadan çox, bioloji davamlılığın nişanı kimi önə çəkməsi Qraalın fiziki statusunu mədəni və genetik yaddaşın simvoluna dönüşdürür.

Romanda adı keçən Sion Təriqəti və Opus Dei kimi təşkilatlar məkan konsepti rolundadır. Çünki müəllif bu quruluşları adi bir binadan daha çox, içərisində məlumatlar gizlənən zəngin arxiv kimi təqdim edir. Bu yanaşma da özlüyündə müəllifin tarixin qaranlıq qatlarına enməsinə, mövcud gerçəkliyə nəzərən rekonstruktiv təkliflər verməsinə zəmin yaradır.

Postmodernizm modernizmdən fərqli olaraq gerçəkliyi elastik formada təqdim edir. Çünki postmodern estetika gerçəkliyi mifdən və absurddan ayıraraq müzakirəyə çıxarır. Lyotarın “Böyük narrativlərin süqutu” tezisi [3] “Da Vinçi filmi” romanında aydın şəkildə hiss olunur. Den Braun tarix və dini absurd və mifdən arındırmaqla işi bitmiş hesab etmir. Burada məqsəd həm də alternativ reallığı gerçəkliyi ciddi mənada zədələmədən önə çıxarmaqdır.

“Da Vinçi şifrəsi” romanında alternativ reallıq təkcə səbəb deyil, həm də nəticəyönümlü bir fəaliyyətdir. Belə ki, romanın elastik quruluşu, bədii oyun texnologiyası müəllif-mətn-oxucu üçbucağının konspetual tamamlanmasına nümunədir. Vladimir Nabokovun “Sehrbaz, müəllim, təhkiyəçi” ədəbi düsturuna nəzərən Braun daha çox sehrbaz kimi önə çıxsa da, müəllimlik funksiyalarını (professor Lənqdon), eləcə də oxucunu araşdırmaya həvəsləndirirək təhkiyəçi kimliyini də müdafiə edir. Bu mənada romanı postmodern estetikanın prinsiplərinə nəzərən oxucuyönümlü mətn adlandırmaq olar.

Romanın digər diqqət çəkən yönlərindən biri də simulyasiyadır. Hansi ki bu termin də Bodriyarın teminologiyasına uyğun olaraq [1] reallığın surətinin daha populyar olmasını qənaətini müdafiə edir. Yazıçı simulyasiyanı bədii mətnə elə ustaca qaynaq edir ki, oxucu bir anlıq hadisələrin gerçək olmasına inanmaq istəyir. Çünki müəllif bunu həm də alternativ gerçəkliyi gerçəklik səviyyəsinə qaldırmaqla hiperreallığın imkanlarından istifadə etməklə edir. Mətnlərarasılıq

gerçəkliyin hipergerçəkliklə əlaqəsi baxımından önəmli rol oynayır. Romanda alternativ gerçəkliyin gerçəklik səviyyəsinə qalxmasının sadə, eyni zamanda mürəkkəb nümunəsi, sözsüz ki, Müqəddəs Qraaldır. Romanın əvvəlində və ortasında alternativ reallıq kimliyi ilə çıxış edən Müqəddəs Qraal bədii mətnin sonlarına doğru gerçəkliyə çevrilir. Müəllif bir cümlə ilə alternativ reallığın gerçəklik səviyyəsinə qalxmasını müjdələyir: "Qraalın axtarışı – Mariya Maqdalinanın qəbri önündə baş əyməkdir" [2, s. 614].

Braunun məqsədi, sözsüz ki, fərqli bir həqiqət inşa etməkdən daha çox, oxucunu alternativ gerçəkliyin mövcudluğuna inandırmaqdır. Yazıçın məqsədi səbəb-nəticə xarakterlidir. Alternativ gerçəkliyin və dini mifin rekonstuksiyasında əsas məqsəd oxucunu araşdırmaya sövq edərək kamilləşdirməkdir. Başqa sözlə, müəllif ideyaca "Müqəddəs heç nə yoxdur" qənaəti ilə "Hər şey müqəddəsdir" təzadını eyniləşdirir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Baudrillard, J. (1994). Simulacra və Simulation. University of Michigan Press.
2. Brown, D. (2003). Da Vinci Code. Doubleday.
3. Lyotard, J.-F. (1984). The Postmodern Condition: A Report on Knowledge. University of Minnesota Press
4. Sutherland, J. (2018). Edebiyatın kısa tarixi. Çeviri: Tufan Göbekçin. İstanbul: Alfa Yayınları.
5. Çeşitli, İ. (2004). Metin Tahlillerine Giriş-2 (Hikaye, Roman, Tiyatro). Ankara: Akçağ Yayınları.
6. Edebiyat Kitabı. (2016). İstanbul: Alfa Yayınları.
7. Kracauer, S. (2019). Polisiye Roman. Felsefi Bir İnceleme. İstanbul: Metis Yayınları.


## ABSTRACT

## THE ARTISTIC RECONSTRUCTION OF ALTERNATIVE REALITY AND RELIGIOUS MYTH IN "*THE DA VINCI CODE*"


**Yeqzar Jafarli**



The purpose of this article is to analyze Dan Brown's *The Da Vinci Code* in terms of the reconstruction of alternative history and religious myth. To achieve this goal, the symbolic, religious, and historical aspects of the literary text are clarified, and artistic observations are made on the boundaries between reality and illusion. Initially, the factual and hypothetical aspects of the novel are explored, and the insights gained are subjected to analytical interpretation. The symbols used by the author in the literary text, as well as religious and historical elements, are explained within the framework of postmodern aesthetics. The author conveys the blurring of boundaries between fact and absurdity to the reader in a postmodern manner. Through the literary text, religious symbols, as well as historical and alternative propositions, create an empirical uncertainty in the reader. Furthermore, the article employs postmodern theoretical concepts such as intertextuality, simulation, and deconstruction, strengthening the scientific-theoretical structure of the paper. The author's use of alternative reality not as an objective, but as a means, has contributed to the artistic interpretation of the text. The parallel presentation of alternative reality and religious myth has created a meaning and aesthetic image on top of the transition between fact and hypothesis in the novel.



**Keywords**: *Dan Brown, Jesus Christ, alternative reality, religious myth.*

## АННОТАЦИЯ

## ХУДОЖЕСТВЕННАЯ РЕКОНСТРУКЦИЯ АЛЬТЕРНАТИВНОЙ РЕАЛЬНОСТИ И РЕЛИГИОЗНОГО МИФА В РОМАНЕ «КОД ДА ВИНЧИ»

**Егзар Джафарли**

Цель данной статьи — проанализировать роман Дэна Брауна «Код да Винчи» с точки зрения реконструкции альтернативной истории и религиозного мифа. Для достижения этой цели проясняются символические, религиозные и исторические аспекты литературного текста, а также проводятся художественные наблюдения о границах между реальностью и иллюзией. Вначале исследуются фактические и гипотетические аспекты романа, а полученные выводы подвергаются аналитической интерпретации. Символы, используемые автором в литературном тексте, а также религиозные и исторические элементы, объясняются в рамках постмодернистской эстетики. Автор доносит до читателя размытость границ между фактом и абсурдом в постмодернистской манере. Религиозные символы, а также исторические и альтернативные суждения, посредством литературного текста создают у читателя эмпирическую неопределенность. Кроме того, в статье используются постмодернистские теоретические концепции, такие как интертекстуальность, симуляция и деконструкция, что укрепляет научно-теоретическую структуру работы. Использование автором альтернативной реальности не как цели, а как средства способствовало художественной интерпретации текста. Параллельное представление альтернативной реальности и религиозного мифа создало смысловой и эстетический образ на основе перехода от факта к гипотезе в романе.

**Ключевые слова:** *Дэн Браун, Иисус Христос, альтернативная реальность, религиозный миф.*